# “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC

# İNKİŞAF SİYASƏTİ

**2024-cü il**

## 1. Ümumi müddəalar

1.1 "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin (bundan sonra – Cəmiyyət) inkişaf siyasəti Cəmiyyətin strateji dəyərlərinin yüksəldilməsi, insan resurslarının idarə edilməsi üzrə sistemləri, maliyyə idarəçiliyi sistemlərini təkmilləşdirmə üzrə əsas niyyətlərini və prioritet istiqamətlərini müəyyən edir.

1.2 Siyasət Azərbaycan Respublikasının Qanunvericiliyi, o cümlədən "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun və Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ xarakterli aktları əsasında hazırlanmışdır.

## 2. Cəmiyyətin inkişaf siyasəti üzrə prioritet istiqamətləri

2.1 Cəmiyyətin strateji dəyərlərinin yüksəldilməsi üzrə prioritet istiqamətləri aşağıdakılardır:

2.1.1 Fəaliyyətini şəffaflıq, ədalətlilik və dürüstlük prinsipləri əsasında həyata keçirmək;

2.1.2 Dövlət orqanları qarşısında öz öhdəliklərini yerinə yetirmək və qanunvericilik ilə müəyyən edilmiş qaydada, müddətdə və məbləğdə vergi və digər icbari ödənişləri ödəmək;

2.1.3 Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəni dəstəkləmək;

2.1.4 Xaricdə fəaliyyət göstərən qabaqcıl investisiya şirkətlərinin təcrübələrini yerli bazarda tətbiq etmək;

2.1.5 Müştəri məlumatlarının, konfidensiallığın tam qorunmasını təmin etmək;

2.1.6 Müştərilər qarşısında öhdəliklərin tam yerinə yetirilməsi məqsədi ilə kifayət qədər ehtiyat fondu formalaşdırmaq;

2.1.7 Kiçik və Orta Sahibkarlıq subyektlərinin Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynaması üçün əlverişli maliyyə alətlərinə çıxış imkanı yaratmaq;

2.1.8 Ölkənin maliyyə bazarlarının inkişafına töhvə vermək;

2.1.9 Təqdim ediləcək məhsul çeşidini diversifikasiya etmək.

2.2 Cəmiyyətin inkişaf hədəfləri aşağıdakılardır:

2.2.1 Mövcud bazarda müştəri məmnuniyyətini və bazar payını artırmaq;

2.2.2 Mövcud xidmətlərin beynəlxalq praktikada tətbiq edilən yeniliklərə uyğunlaşdırmaq;

2.2.3 Cəmiyyətin investisiya gəlirliliyini artırmaq;

2.2.4 İdarəetmə xərclərinin optimallaşdırılmasını təmin etmək;

2.2.5 Müasir texnologiyaların və yeniliklərin tətbiqini təmin etmək;

2.2.6 Müştəri məmnuniyyətini təmin etmək və daima təkmilləşdirmək.

2.3 Cəmiyyətin insan resurslarının idarə edilməsi üzrə sistemlərin təkmilləşdirilməsi üzrə prioritet istiqamətləri aşağıdakılardır:

2.3.1 İşə qəbul sistemini təkmilləşdirmək;

2.3.2 Əməyin qiymətləndirilməsi sistemini təkmilləşdirmək;

2.3.3 Karyera planlaşması sistemini təkmilləşdirmək;

2.3.4 Peşəkar kollektivin və sağlam iş mühitinin mövcud olmasını təmin etmək;

2.3.5 İnsan resurslarının planlaşması sistemini təkmilləşdirmək;

2.3.6 Mövcud işçilərin bilik səviyyələrinin artırılması məqsədilə davamlı təlimlərin keçirilməsini təmin etmək.

2.4 Cəmiyyətin Müştəri məmnuniyyəti hədəfləri Cəmiyyətin müştəri məmnuniyyətinin artırılması sistemlərin təkmilləşdirilməsi üzrə prioritet istiqamətləri aşağıdakılardır:

2.4.1 Müştəri məmnuniyyətinin artırılması üçün yeni geridönüş sistemini inkişaf etdirmək;

2.4.2 Müştəri məlumatlarını qorumaq və biznes etikasının davamlı inkişafını təmin etmək;

2.5 Cəmiyyətin maliyyə idarəçiliyi işinin təkmilləşdirilməsi üzrə priotitet istiqamətləri aşağıdakılardır:

2.5.1 Maliyyə planlaması və maliyyə idarəçiliyinə nəzarət prosesini təkmilləşdirmək;

2.5.2 Cəmiyyətin maliyyə hesabatlarının həm yerli qanunvericiliyə, həm də Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğunluğunu təmin etmək;

2.5.3 Cəmiyyətin maliyyə göstəricilərini daima yaxşılaşdırmaq, gəlir və xərclərə nəzarət etmək və vəsaitlərdən səmərəli istifadəni təmin etmək;

2.5.4 İdarəetmə xərclərinin optimallaşdırılmasını təmin etmək.

## 3. Yekun müddəalar

3.1 Bu Siyasət təsdiq edildiyi gündən qüvvəyə minir.

3.2 Bu Siyasətə əlavə və dəyişikliklər yalnız Müşahidə Şurasının qərarı ilə edilə bilər.

3.3 Azərbaycan Respublikasının qanunvericiliyi, Cəmiyyətin Nizamnaməsi, Cəmiyyətin nəzarət və idarəetmə orqanlarının qəbul etdiyi daxili normativ sənədlər ilə bu Siyasətin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər.

3.4 Azərbaycan Respublikasının qanunvericiliyin dəyişiklik edilməsi nəticəsində bu Siyasətin hər hansı müddəası ilə qanunvericilik arasında ziddiyyət yaranarsa, həmin müddəa qüvvədən düşmüş hesab edilir.